# QUBA TEATRININ YARADICILIQ İSTİQAMƏTİ

E.X.CANIYEV
*Azərbaycan MEA-nın Memarlıq və İncəsənət İnstitutu*

Böyük mütəfəkkir, dramaturq və yazıçı Mirzə Fətəli Axundov teatr sənətinə yüksək qiymət verərək hər bir şəhərdə teatr yaradılmasının vacibliyini dönə-dönə qeyd etmişdir (1, s.312). Sözsüz ki, böyük dramaturqun bu arzusu adi bir mülahizə deyil, ciddi əhəmiyyət kəsb edən daxili bir istək idi. Ədib çox yaxşı bilirdi ki, bir teatr milli teatr mədəniyyətini ehtiva edə bilməz. Milli teatr mədəniyyəti teatrlar sistemindən yaranır. Teatr sistemi isə adi bir iş kimi deyil, qanuniyyət kimi qəbul edilməlidir. XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanda yaranan teatrlar məhz bu qanuniyyətdən doğmuşdu. Bu həqiqəti dərindən dərk edən Azərbaycanın o vaxtkı mədəniyyət xadimləri, maarifpərvər ziyalıları yaşadıqları və işlədikləri yerlərdə, məs., Şuşada, Şamaxıda, Lənkəranda, Salyanda, Göyçayda, Ağdaşda, Qubada, Şəkidə, Naxçıvanda, hətta respublikamızdan xaricdə – Tiflisdə, İrəvanda, Orta Asiyada, İran Azərbaycanında və digər bölgələrdə teatr yaratmaq işi ilə məşğul olurdular. Bu məsələ ilə məşğul olan şəxslər xalqın maariflənməsi və mədəni inkişafı üçün üç mühüm sahəni vacib bilirdilər: teatr, məktəb və mətbuat.Teatr işi uğrunda fədakarcasına çalışan bu cəfakeş insanlar despotizmin, fanatizmin, ictimai və milli zülmün bütün təzahürlərinə qarşı mübarizədə teatr sənətinə böyük əhəmiyyət verirdilər. Bu baxımdan Quba ziyalılarının fəaliyyəti, onların teatr yaratmaq sahəsindəki cəhdləri olduqca diqqətəlayiqdir.

Azərbaycan teatrına Əli Cəfərov, İldırım Hüseynov, Həsən Mövludzadə və digər həvəskarlar, ilk qadın dramaturq, maarifpərvər insan Səkinə xanım Axundzadə kimi şəxsiyyət vermiş Quba, hələ XX əsrin ilk illərindən teatral şəhər kimi tanınmağa başlamışdı. 1911-ci il iyul ayının 1-də qubalı teatr həvəskarlarının göstərdikləri «Axşam səbri xeyir olar» tamaşası maraqla qarşılanmışdı. Təxminən 10 gün sonra qubalı teatr həvəskarları ilk dəfə olaraq «şərq gecəsi» təşkil etmişlər. Həmin gecədə Sultan Məcid Qənizadənin «Axşam səbri xeyir olar» komediyası ilə yanaşı, Nəcəf bəy Vəzirovun «Ev tərbiyəsinin bir şəkli» əsərini də tamaşaçılara göstərmişlər (2, s.254-255).

Təbii ki, teatrlar müxtəlif şəhərlərdə və rayonlarda fəaliyyət göstərsələr də onların yaradıcılıq istiqamətlərində ümumi bir keyfiyyət mövcud idi. Lakin bununla belə, Quba teatrının Azərbaycan teatrı hərəkatında mövqeyi aydın seçilirdi. Ona görə də Bakı teatrının görkəmli aktyorları vaxtaşırı Qubaya gedib, yerli teatr həvəskarları ilə birlikdə çıxışlar edirdilər.1911-ci ilin noyabr ayında Sidqi Ruhulla Qubaya getmiş, yerli teatr həvəskarlarının təşkil etdikləri «Səhər» artistlər dərnəyinin üzvləri ilə birlikdə Əbdürrəhim bəy Haqverdiyevin «Bəxtsiz cavan»

faciəsini hazırlamışdır, özü də həmin pyesdə Fərhad rolunu oynamışdır. Qalan rollarda qubalı teatr həvəskarları çıxış etmişlər. Həmin ilin dekabr ayında ustad sənətkar Sidqi Ruhulla «Artistlər dərnəyi»nin qış binasında yerli teatr həvəskarları ilə Nəriman Nərimanovun «Nadir şah» tarixi dramını tamaşaya hazırlamışdır. Sidqi Ruhulla bu dram əsərində Nadir şah rolunu da özü ifa etmişdir (2, s.269, 271).

1912-ci ilin avqust ayında qubalı teatr həvəskarları Bakıdan gələn artislərlə birlikdə Hüseynqulu Sarabskinin «Cəhalət» pyesinin tamaşasını hazırlamışlar. Qubadakı «Artistiçeskoe obhestvo»nun qış binasında göstərilən «Cəhalət» pyesinin tamaşası (2, s.298, 411) Quba teatr həvəskarlarının yaradıcılıq istiqaməti, estetik prinsipləri barədə təsəvvürləri genişləndirdi.

Quba teatrının yaradıcılıq istiqamətinin aydınlığında yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycanın ilk qadın dramaturqu Səkinə xanım Axundzadənin böyük və əhəmiyyətli rolu olmuşdur. 1865-ci ildə Qubada «Fərda» təxəllüslü şair Heybət bəy Axundzadənin ailəsində dünyaya gələn Səkinə xanım ədəbiyyat və teatrla yaxından maraqlanır. Bakıya gəldiyi ilk gənclik illərindən bu sahədə çalışmaq barədə düşünürdü. Çadralı halda teatra ayaq açan Səkinə xanım fikirləşirdi ki, kaş tamaşalara baxmaq bütün azərbaycanlı qızlara və qadınlara nəsib olaydı. Quba teatr həvəskarları ilə yaxından əlaqə saxlayan Səkinə xanım «Elmin bəhrəsi» adlı ilk pyesini yazır. Bu pyes əvvəllər Səkinə xanımın dil və ədəbiyyatdan dərs dediyi Bakı qız məktəbinin müəllimələri və şagirdləri tərəfindən tamaşaya qoyulur, sonralar Quba, Ağdaş və Göyçay teatr həvəskarlarının diqqətini cəlb edir. Xatirələrdən məlum olur ki, pyesin müəllifi qadın olduğu kimi, rejissoru da qadın idi, rolları da qadınlar ifa etmişdilər.

Səkinə xanım Axundzadə «Gəlin və qayınana» adlı komediya, «Haqq söz acı olar» adlı pyes, Azərbaycan folkloru əsasında «Şahzadə Əbülfəz və Rəna xanım» adlı hekayə yazmış, türk dramaturqu Namiq Kamalın «Zavallı çocuq» pyesini «Bəxtsiz bala» adı ilə təbdil etmiş, «Lakme» adlı əsəri Azərbaycan dilinə tərcümə etmişdir (3, s.32-33). O, Nəcəf bəy Vəzirovun «Yağışdan çıxdıq, yağmura düşdük» komediyasını həm Bakıda, həm də Qubada teatr həvəskarları ilə tamaşaya hazırlamışdı. Səkinə xanımın o dövrdə çox çətin bir iş olan – qadınları teatra cəlb etmək sahəsindəki fəaliyyəti olduqca əhəmiyyətli və diqqətəlayiq olmuşdur.Bu barədə «Kaspi» qəzeti belə yazır»: «Yekşənbə və düşənbə axşam saat 5-də müsəlman qadın cəmiyyətinin xeyrinə qızlar tərəfindən «Arşın mal alan» operettası ancaq xanımlar üçün oynanılacaqdır. Bu teatr işində Səkinə xanım az zəhmət çəkməmişdir» (4). Başqa bir məqalədə isə yazılmışdır ki, « ... tamaşalar qadınlarımızın ruhlarında nə böyük və nə sənətkaranə istedad olduğunu göstərdilər. Səkinə xanımın səhnə aləmində göstərmiş olduğu iqtidar və məharət, yazılarındakı sadəlik və səmimiyyət gerçəkdən böyük bir təşəkkür və təqdirə layiqdir» (5).

Teatra məhəbbətlə yanaşan, onu tərbiyə ocağı, məktəb, darülədəb adlandıran, bu sahədə M.F.Axundovun fikrini davam etdirən Səkinə xanım ömrünün son illərini doğma Quba şəhərində yaşamış və bu şəhərin teatr həvəskarları ilə sıx əlaqə saxlamış, onlara lazımi köməkliyi göstərmişdir. O, eyni zamanda Qubaya qastrola gələn Bakı artistləri ilə daim görüşmüş, tamaşaların təşkili işinə kömək göstərmişdir.1925-1926-cı illərdə Abbas Mirzə Şərifzadə Qubada olduğu zaman Səkinə xanım onun

şərəfinə böyük qonaqlıq vermiş və Hüseyn Cavidin «İblis» əsərindən çox sevdiyi monoloqu söyləməyi arzulamışdı. Süfrə başında aktyorun monoloqu dramaturqun alqışları ilə qarşılandığı çağlar Səkinə xanımın həyatının son illəri idi (3,s.38).

Azərbaycanda 1920-ci il çevrilişindən sonra Quba teatr həvəskarları xüsusi seksiya yaratdılar;bir növ dram dərnəyi kimi fəaliyyətlərini davam etdirdilər. Uzun müddət tamaşalar vermiş bir kollektiv sovet ideologiyasının təbliğini gücləndirmək məqsədilə kənd yerlərində də tamaşalar göstərirdilər. Heç şübhəsiz ki, onların işinə mane olmağa çalışanlar az deyildi. Lakin teatra ürəkdən bağlı olan teatr həvəskarları bu maneələrə qarşı qətiyyətlə mübarizə aparırdılar.

Nəhayət, nə qədər qəribə görünsə də, 1937-ci ildə şəxsiyyətə pərəstişin ən qızğın çağında, eləcə də Azərbaycanın bir neçə şəhər və rayonlarında olduğu kimi, Qubada da Dövlət Dram Teatrı yarandı. Həmin dövlət teatrlarının estetik prinsipləri arasında nəzərə çarpacaq bir fərq olmadığı kimi, repertuarlar seçimində də oxşarlıq var idi. Onlar Bakı teatrında oynanılan əsərləri öz repertuarlarına daxil edirdilər. Cəfər Cabbarlının «Aydın», «Od gəlini», Səməd Vurğunun «Vaqif», «Xanlar», Sabit Rəhmanın «Toy», Georgi Malivaninin «Vətən namusu», Nəcəf bəy Vəzirovun «Ev tərbiyəsinin bir şəkli», Əbdürrəhim bəy Haqverdiyevin «Dağılan tifaq», Sultan Məcid Qənizadənin «Axşam səbri xeyir olar» və digər pyeslər Quba Dövlət Dram Teatrı kollektivi tərəfindən bacarıqla səhnədə canlandırılmışdı.

Yuxarıda qeyd etdik ki, Quba Dövlət Dram Teatrı özfəaliyyət dram dərnəyi əsasında formalaşmışdı. Təbii ki, teatrda fəaliyyət göstərən aktyorların heç biri ixtisas təhsili almamışdı. Lakin onlarda teatra, səhnə sənətinə məhəbbət və vurğunluq var idi; özləri də bu istedadları ilə seçilirdilər. Məhz buna görə də bir sıra mükəmməl pyesləri tamaşaya lazımınca hazırlaya bilmişdilər. Mətbuatın qeyd etdiyi kimi, teatrın kollektivi gənc olmasına baxmayaraq, yaxşı uğurlar əldə edə bilmişdilər. Hətta təcrübəsi az olan aktyorlar belə, yaratdıqları obrazların bütöv şəkildə tamaşaçıya çatdırılmasına, əksər hallarda nail ola bilirdilər. Bu işdə onların istedadları ilə yanaşı öz üzərlərində daima ciddi şəkildə çalışmaları öz müsbət təsirini göstərirdi(6). 4 aprel 1941-ci il tarixli «Qızıl Quba» qəzetində qeyd olunmuşdur: «cəsarətlə demək olar ki, Səməd Vurğunun əsərləri aktyor sənətini romantik stilə qaldırmaq işində böyük bir məktəbdir». Quba Dövlət Teatrının Şərqiyyə Bağırova, M.Heydərov, Z.Qalabəyov, H.Zahidov və digər aktyorları bu romantik üslubdan yetərincə bəhrələnib və öz düşünülmüş oyunları ilə tamaşaçılara güclü təsir göstərirdilər. Bu cəhət də dəyərlidir ki, yalnız rayon mərkəzlərində deyil, kənd yerlərində də mütəmadi çıxış edən teatr kollektivi xalqın maariflənməsi və mədəni inkişafı sahəsində də mühüm işlər görə bilirdilər.

Məlum bir məsələdir ki, tamaşanın quruluşçu rejissoru əsərin ikinci müəllifi hesab olunur. Hər hansı bir əsərin dolğun səhnə həllini tapmasında quruluşçu rejissorun xidməti danılmazdır. Quba Dövlət Dram Teatrının ilk yaradıcılıq illərində adlarını yuxarıda çəkdiyimiz əsərlərin dolğun səhnə təcəssümündə teatrın bədii rəhbəri İmran Musayevin bir quruluşçu rejissor kimi xidməti diqqətəlayiq olmuşdur. «Qızıl Quba» qəzetində qeyd olunub ki, pyeslərin müvəffəqiyyətli olmasında aktyor ansamblı ilə yanaşı, rejissorların da öhdəsinə böyük məsuliyyət düşür. Teatrın bədii rəhbəri İ.Musayev Səməd Vurğunun «Vaqif» əsərinin və

bir sıra başqa dram əsərlərinin tamaşaya qoyulmasında rejissor кimi fəaliyyəti diqqəti çəкmişdi. Eyni zamanda tamaşalarda bir aкtyor кimi də çıxış edən İmran Musayev «Vaqif» tamaşasında Vaqif obrazını da bacarıqla yaratmışdı (7).

**QEYDLƏR**


1. Bax: Cəfərov Cəfər. Əsərləri, 2 cilddə. I cild. Baкı: Azərnəşr, 1968.
2. Azərbaycan teatrının salnaməsi. Baкı: Azərnəşr, 1975.
3. Unudulmaz səhnə ustaları.Baкı: Yazıçı, 1981.
4. «Kaspi» qəzeti, 1917-ci il , 26 yanvar.
5. «İttihad» qəzeti, 1917-ci il, 18 deкabr.
6. «Qızıl Quba» qəzeti, 1940-cı il, 10 deкabr.
7. «Qızıl Quba» qəzeti, 1941-ci il, 4 aprel.


**ОСНОВЫЕ НАПРАВЛЕНИЯ РАЗВИТИЯ ГУБИНСКОГО ТЕАТРА**


**Э.Х.ДЖАНИЕВ**


**РЕЗЮМЕ**


В статье автор излагает основные направления развитии Губинского Государственного Театра и заостряет внимание читателей на актерах, режиссерах, художниках, которые вложили большой труд в это развитие.


**ON THE DIRECTION OF THE DEVELOPMENT OF CUBA DRAMA THEATRE**


**E.Ch. JANIYEV**


**SUMMARY**


The article deals with the Direction of the development of Cuba Drama Theatre. The author investigates the creative activity of a small dramatic circle, which grew into Cuba Drama Theatre. The plays staged there, the troop of actors and actresses working at the theatre and the care of the State to Cuba Drama Theatre find their research in this article.